

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 43 (23.685)

4 mart 2021-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri, general Nadim Razanın başçılıq etdiyi nümayəndə heyətini videoformatda qəbul edib.

Prezident İlham Əliyev müharibə zamanı nümayiş etdirilən həmrəyliyə və dəstəyə görə qardaş Pakistana təşəkkürünü ifadə edib. Qeyd olunub ki, Pakistan dünyanın Ermənistanla diplomatik münasibətlər qurmayan azsaylı dövlətlərindən biridir və Azərbaycanın torpaqlarının işğalı səbəbindən Ermənistanı rəsmi olaraq tanımayıb. Azərbaycan da öz növbəsində, hər zaman Kəşmir məsələsi daxil olmaqla, bütün digər məsələlərdə Pakistanı dəstəkləyir. Bu dəstək BMT, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təsisatlarda verilir. Dövlətimizin başçısı ikitərəfli münasibətlərdə iqtisadiyyat, hərbi sahədə əməkdaşlığın böyük potensialı olduğunu diqqətə çatdırıb.

Pakistanın Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri, general Nadim Raza Prezident İlham Əliyevi və Azərbaycan xalqını 44 günlük müharibədə tam Qələbəsi münasibətilə təbrik edərək bu Zəfərin eyni istəklə Pakistanda qeyd olunduğunu, müharibənin istənilən anında Azərbaycan Silahlı Qüvvələrinin əməliyyatlarının Pakistanın kütləvi informasiya vasitələrində əsas başlıqla getdiyini xatırladıb.

## İxrac iqtisadiyyatın əsas hərəkətverici qüvvəsinə çevrilir

***Məhsul bolluğu yaratmaq, bu sahədə idxalı azaltmaq, ixracın isə həcmini artırmaq qarşıya qoyulan prioritet vəzifələrdəndir. Bu məqsədlə muxtar respublikada istiqamətlər müəyyənləşdirilib və hazırda onlar uğurla həyata keçirilir.***







Qazanılmış uğurlar muxtar respublikanın ixrac potensialının artmasını təmin etmiş, məhsulların ixracının genişlənməsinə səbəb olmuşdur. Belə ki, 2021-ci ilin yanvar ayı ərzində muxtar respublikanın xarici ticarət dövriyyəsi 31 milyon 918 min 100 ABŞ dolları təşkil edib. İxracın dəyəri 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə artaraq 24 milyon 166 min ABŞ dolları təşkil etmiş, 16 milyon 413 min 900 ABŞ dolları dəyərində müsbət saldo yaranmışdır.

Bu gün muxtar respublikada sahibkarlara göstərilən diqqət və qayğı, ixracın stimullaşdırılması sahəsində qəbul olunan qərarlar, sahibkarlığa sistemli dövlət dəstəyi muxtar respublikanın ixrac imkanlarını artırıb, iqtisadi əlaqələri daha da genişləndirib, yerli malların dünya bazarlarında daha geniş çeşiddə təmsil olunmasına şərait yaradıb. Bu ilin yanvar-fevral aylarında 3-ü onlayn formatda olmaqla, ümumilikdə, 5 beynəlxalq əhəmiyyətli tədbirdə 13 sahibkarlıq subyektinin 15 nümayəndəsinin iştirakı təmin edilmişdir.

İxrac təşviqi mexanizmi iqtisadiyyatın diversifikasiyasının davam etdirilməsi, yaradılmış ixrac potensialından daha səmərəli istifadə olunması ixracatçılara məhsullarını beynəlxalq bazarda daha rəqabətqabiliyyətli qiymətlərlə təklif etmək imkanı yaratmışdır. 2017-2020-ci illərdə ixrac təşviqi mexanizmindən yararlanan 3 sahibkarlıq subyekti öz məhsullarını 12-dən artıq ölkəyə ixrac edib. Bu da onu deməyə əsas verir ki, Naxçıvanda yüksəkkeyfiyyətli məhsul istehsal edən müəssisələr mövcuddur və onların sayı davamlı olaraq artır.

Həmçinin qida məhsullarının ekspertizası üzrə beynəlxalq akkreditasiyadan keçmiş və İSO 17025-2005 tələblərinə cavab verən laboratoriya fəaliyyət göstərir ki, ixrac əməliyyatlarında tələb olunan bir sıra sertifikatlar məhz buradan təmin olunur. Cari ilin yanvar-fevral aylarında vafli, peçenye, fıstıq, filtrli siqaret, araq, travertin, polipropilen kopolimer (fitinq) məhsullarının Gürcüstan, Əfqanıstan, Birləşmiş Ərəb Əmirliyi, İran İslam Respublikası, Türkiyə, Ukrayna kimi ölkələrə ixrac olunması məqsədilə “İstehlak Mallarının Ekspertizası Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 12 halda mənşə sertifikatı verilmişdir.

2020-ci ilin muxtar respublikada “İxrac ili” elan edilməsi və “Naxçıvan Muxtar Respublikasında ixrac potensialının və ixraca dövlət dəstəyinin artırılması ilə bağlı Tədbirlər Planı”nın təsdiq olunması istehsal olunan məhsulların ixrac imkanlarının artmasına və xarici bazarlarda tanınmasına şərait yaratmışdır. Bu tədbirlər qarşıya qoyulan vəzifələrin tam icrasını təmin etmək məqsədilə 2021-ci ildə də davam etdiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

*Aqrar sahə Naxçıvan Muxtar Respublikası iqtisadiyyatında mühüm əhəmiyyətə malikdir. Bu sahənin dinamik inkişaf etdirilməsi və regionda ərzaq təhlükəsizliyinin təmin olunması həmişə diqqət mərkəzində saxlanılıb. Kənd təsərrüfatı məhsullarının gözlənilməz bədbəxt hadisələrdən sığortalanması da günün vacib tələbi kimi bu sahəyə məsul olan qurumlar qarşısında əsas vəzifələrdən biri kimi müəyyənləşdirilib.*

## Aqrar sığortaya diqqət artırılır



Müxtəlif təbii, texnogen və üçüncü şəxslərin hərəkəti mənşəli risk faktorlarına həssas olan kənd təsərrüfatına bir sıra səbəblərdən dəyən maddi zərərlərin əvəzinin ödənilməsinə xidmət edən aqrar sığorta bu sektorun investisiya cəlbediciliyinin yüksəlməsinə də müsbət təsir göstərir. Nəticədə, aqrar sığorta sisteminin tətbiqi ilə kənd təsərrüfatı məhsullarının istehsalının davamlılığı və dayanıqlılığı təmin olunur, sahəyə biznes marağının artmasına şərait yaranır.

Kənd təsərrüfatı muxtar respublika iqtisadiyyatında sənayedən sonra ikinci böyük sahədir. Buna görə də aqrar sahənin daha da inkişaf etdirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən Dövlət Sığorta Xidməti publik hüquqi şəxsi qarşısında muxtar respublikada sığorta işinin təkmilləşdirilməsi, könüllü sığortanın tətbiqi və səyyar xidmətin əhatə dairəsinin genişləndirilməsi, insanların maarifləndirilməsi ilə yanaşı, sığorta bazarında aqrar sektorun xüsusi çəkisinin artırılması kimi mühüm vəzifələr qoyulub.

Hazırda muxtar respublikada aqrar sığorta üzrə həyata keçirilən işlər bu sahədə ötən illərə nisbətən xeyli irəliləyişlər olduğunu göstərir. Belə ki, Naxçıvan Muxtar Respublikası Dövlət Sığorta Xidməti publik hüquqi şəxsdən aldığımız məlumata görə, ötən ilin nəticələrinə əsasən mal-qara sığortası üzrə bağlanılmış müqavilələrin sayı 2426 olub ki, bu da əvvəlki illə müqayisədə 6,35 dəfə çoxdur. Belə bir artım aqrar sahə üzrə sığorta xidmətlərinə olan geniş marağı və gələcək perspektivdən xəbər verir. Bu müddətdə iribuynuzlu heyvanların sığortalanması üzrə 507, xırdabuynuzlu heyvanların sığortası üzrə 1593, arı ailələrinin sığortası üzrə 226 müqavilə bağlanılıb. Ötən il muxtar respublikada ilk dəfə olaraq ev quşlarının da sığortasına başlanılıb və 100 müqavilə bağlanılıb. Qeyd edək ki, bu müqavilələri bağlayan təsərrüfat subyektlərinin 90 faizindən çoxu ailə təsərrüfatçılarıdır.

Əkin sahələrinin sığortasına gəldikdə isə ənənəvi olaraq burada da taxıl əkinlərinin sığortası ilə yanaşı, bir sıra yeni sahələr üzrə torpaq mülkiyyətçiləri ilə müqavilələr bağlanılıb. Belə ki, ötən il müxtəlif tərəvəz, göbələk və gülçülük təsərrüfatları, meyvə bağları sahibləri ilə də sığorta müqavilələri bağlanılıb.

Göründüyü kimi, aqrar sahə üzrə sığorta könüllü sığorta olsa da, aparılan maarifləndirmə işləri və səyyar sığorta xidmətləri sayəsində bu sahədə əvvəlki illərə nisbətən xeyli artım vardır. Ayrıca olaraq baş vermiş sığorta hadisələrinə görə dəymiş zərərlərin vaxtında ödənilməsi də sığortalıların bu sahəyə olan marağını artıran amil kimi diqqəti cəlb edir. Bütün bunlar isə, son nəticədə, aqrar sahədəki istehsalçıların maraqlarının qorunmasına yönəlmiş dövlət siyasətinin bəhrəsidir.

**✍ Əli CABBAROV**

## Muxtar respublikada əhalinin dinamik artımı dövlət qayğısının bəhrəsidir

*Son illər muxtar respublikanın sosial-iqtisadi həyatında əldə olunmuş davamlı inkişaf, həyata keçirilən islahatların səmərəliliyi, səhiyyə sistemində aparılan qabaqcıl tədbirlər yaşayış səviyyəsinin və güzəranın yaxşılaşdırılması, əhali artımına əlverişli şərait yaratmışdır.*



Muxtar respublikada 1 yanvar 2021-ci il tarixə əhalinin sayı 2010-cu ilin sonu ilə müqayisədə 51,4 min nəfər artaraq 461,5 min nəfər olmuşdur. Ümumi əhalinin 95,1 min nəfəri Naxçıvan şəhərində, 117,9 min nəfəri Şərur, 76,5 min nəfəri Babək, 50,3 min nəfəri Ordubad, 47,3 min nəfəri Culfa, 33 min nəfəri Kəngərli, 25,3 min nəfəri Şahbuz, 16,1 min nəfəri isə Sədərək rayonlarında qeydə alınıb.

Əhalinin 230,5 min nəfərini kişilər, 231 min nəfərini isə qadınlar təşkil edib. Əhalinin 35,4 faizi şəhər, 64,6 faizi isə kənd yerlərində yaşayır.

Muxtar respublikada bir kvadratkilometrə düşən əhalinin sayı 84 nəfər olmuşdur ki, bu da 2010-cu ilin sonu ilə müqayisədə 9 nəfər çoxdur. Əhalinin ən sıx məskunlaşdığı yer Naxçıvan şəhəridir. Burada bir kvadratkilometrə 496 nəfər düşür.

2020-ci ildə muxtar respublikada 4624 körpə doğumu qeydə alınmışdır. Doğulanların 2450-ni və ya 53 faizini oğlanlar, 2174-nü və ya 47 faizini isə qızlar təşkil etmişdir. Doğulan uşaqlardan 70-i əkiz, 2-si isə üçəm olub. 2020-ci ildə muxtar respublikada doğulan oğlanlarda Yusif, Əli, Hüseyn, Məhəmməd və Uğur, qızlarda isə Zəhra, Fatimə, Nilay, Məryəm və Zeynəb adları üstünlük təşkil etmişdir. Ümumilikdə, son 10 ildə muxtar respublikada 71,5 min uşaq doğulmuşdur.

2020-ci ildə ölüm göstəricisi muxtar respublikada əhalinin hər 1000 nəfərinə hesabı ilə 6,2 nəfər olmuşdur. 1 yaşa qədər uşaq ölümü ilə əlaqədar göstərici isə hər 1000 doğulana hesabı ilə 3,9 nəfər təşkil etmişdir. Qeydə alınmış bu göstəricilər ölkənin digər iqtisadi rayonları və Bakı şəhəri ilə müqayisədə ən aşağı səviyyədədir.

2020-ci ildə muxtar respublikada 1489 nikah bağlanmış, nikaha girənlərdə orta yaş həddi kişilərdə 28,6, qadınlarda isə 24,3 yaş təşkil etmişdir. 2011-ci ildən 1 yanvar 2021-ci il tarixədək muxtar respublikada 27,8 min nikah qeydə alınmışdır.

1 yanvar 2021-ci il tarixə muxtar respublikada gənclərin sayı 142,2 min nəfərə çatmışdır ki, bu da ümumi əhalinin 30,8 faizini təşkil edir.

Muxtar respublikada demoqrafik proseslərdə qeydə alınmış müsbət dinamika davamlı və dinamik inkişafı, sağlam cəmiyyətin formalaşdırılmasını təmin etmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

Müasirləşən kəndlərimiz

# Ucqar dağ kəndinin yeni mənzərəsi

**Reportaj**

***Ordubad şəhərindən yeddi kilometr şimal-şərqdə, uca dağların ətəyində yerləşir Nüsnüs... Qışda başıqarlı dağları, yazda al-əlvan təbiəti, füsunkar dağ mənzərələri, yayda çağlayan sərin bulaqları, payızda min bir dərdə dərman olan bitkiləri, həmçinin tariximizi, milli dəyərlərimizi özündə yaşadan tarixi tikililəri, məscidləri, ömrünü-gününü torpağa bağlayan zəhmətkeş insanları, elm adamları, ziyalıları ilə seçilir bu kənd. Diyarımıza gələn yerli və xarici qonaqların ziyarət etdikləri kəndlər sırasındadır Nüsnüs. Həmin Nüsnüs ki dövlətimizin diqqət və qayğısı ilə abad, müasir yaşayış məntəqəsinə çevrilib.***



Kəndin yeni siması ilə tanış olmaq üçün ora gedirik. Vaxt var idi, daşlı-kəsəkli yollarla kəndə gəlib-getmək min bir çətinlik həm də vaxt itkisi, əzab-əziyyət bahasına başa gəlirdi. Bunu kəndin sakinlərinin də dilindən eşidəcəyik. Amma sizə deyim ki, maşınımız yenidən qurulan Yuxarı Əndəmic-Nüsnüs avtomobil yolu ilə sürətlə irəliləyərək kəndə vaxtından əvvəl, rahatlıqla çatdı. Dörd tərəfi dağlarla əhatəli bu gözəl yaşayış məntəqəsi şəhər simasına bürünüb. Müasir kənd yolu, hərtərəfli tədris şəraiti yaradılan kənd məktəbi, səmərəli idarəetmənin və ailə təsərrüfatlarının inkişafına geniş imkanlar açan yeni kənd və xidmət mərkəzləri, sağlamlığımızın qoruyucusu həkim ambulatoriyası, tarixi-mədəni irsimizi yaşadan su dəyirmanı muxtar respublikamızda insan amilinə verilən yüksək dəyərin bariz nümunələri kimi Nüsnüsə xüsusi rəng qatıb. Kəndin dünəni ilə maraqlanıb bunu yaşlı kənd sakinlərinin dilindən eşitmək isə həm maraqlı, həm də bu günümüzü dəyərləndirmək baxımından ibrətamizdir. Elə mən də kənd ağsaqqalı, 82 yaşlı Əlvida Əhmədovla həmsöhbət oluram. Müsahibimin dediklərindən:

– Qızım, mən İkinci Dünya müharibəsini, Birinci Qarabağ müharibəsini və Böyük Qələbə çaldığımız İkinci Qarabağ müharibəsini görmüşəm. Qısası, həyatın çox çətin, eyni zamanda şirin anlarını da yaşamışam. Çətin zamanlardan danışsaq, qurtarmaz, gəlin əvvəlcə Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasından deyim bir-iki kəlmə. O vaxtlar atam Zəngilandan, Mincivandan belə, dolanar beş-üç kilo arpa və buğda alıb gətirərdi ki, ailəmizi dolandıra bilsin. Evə gələndə getdiyi yerlər haqqında maraqlanardım. Atam da o torpaqlar cənnətdir, bala, – deyərdi. Lakin tarixboyu torpaqlarımızda gözü olan ermənilər 90-cı illərdə bizə məxsus bu əraziləri işğal etdi, Zəngilan da onların içində getdi. Üzüldük, amma əyilmədik. Ötənilki müharibədə igid Vətən oğulları torpaqlarımızı düşmən tapdağından azad etdi, onların içərisində Zəngilan da var idi... İndi keçək söhbətimizin əvvəlinə. Qızım, o vaxt çörək tapmaq müşkül məsələ idi, qaz yox idi, işıq da ki, həmçinin. Kəndimizdə tut bağlarının ucu-bucağı da yox idi onda. Yerə düşəni götürürdük, doşabdan, tut qurusundan istifadə edirdik. Amma indi yerdə tut tökülüb qalır, əyilib götürən yoxdur. Niyə, bolluqdur, ona görə. Allah dövlətimizin başçısına, muxtar respublika rəhbərinə cansağlığı, uzun ömür versin. Artıq əvvəlki kəndimizdən əsər-əlamət yoxdur. Bundan belə kəndə gələnlər yeni salınan asfalt yolla rahat gəlib çıxa biləcəklər. Kənd məktəbini görürsünüz necə gözəldir?.. Bu məktəbdə nəvələrim, gül balalarımız yaxşı oxuyacaq, millətimizə fayda verəcəklər. Bu kəndin əhalisi də zəhmətkeşdir, hamı öz təsərrüfatı ilə məşğul olur. Əvvəllər arıçılıq və heyvandarlıq əsas məşğuliyyətim idi. İndi yaşlaşmışam deyə, arı və heyvanlarımıza oğlum baxır.

Müsahibim söhbətinə davam edərək deyir ki, bu kəndin insanları dinə, imana bağlı insanlardır:

– Mənim özüm Quran oxuyan, namaz qılanam. Həcc, Məşhəd və Kərbəla kimi müqəddəs yerlərdə ziyarətdə olmuşam. Kəndimizdə ibadət yerləri – məscidlər, pirlər vardır. “Qırxkimsə” piri ölkəmizdə də yaxşı tanınır. Pir kəndimizdəki məscid binasındadır. Buraya verilən nəzir-niyazın qəbulu üçün digər şəhər və rayonlarımızdan da ziyarətə gəlirlər. İllər əvvəl mən bu pirə nəzarət edirdim. Nüsnüs kəndinin adı da elə bu pirlə bağlıdır. Bir vaxtlar pirin yerləşdiyi yerdə bir neçə adam qeyb olub, onların arxasınca gəliblər, soruşublar ki, bura adamlar gəldi, gördünüz? “Nis-nis”, yəni “yox-yox” cavabı alıblar. Kəndin adı da elə oradan qalıb. Pirin giriş qapısının üzərində süls xətti ilə kitabə vardır. Burada yazılıb ki, məscid 1325-1326-cı illərdə Əbu Səid Bahadır xanın səltənəti dövründə uca Tanrıya möhtac, zəif qul bin Arslan, bin Səncər, bin Atabəy qoruyucusu Aytəkinin əli ilə tikilmişdir. Nüsnüs pirinə ilin bütün fəsillərində gəlmək olar, burada ziyarətçilər üçün lazımi şərait yaradılıb, – deyir müsahibim. Kəndimizdə XIV-XV əsrlərə aid hamam var. O vaxtlar hamamı qızdırmaq üçün samandan və odundan istifadə edirdilər. Onu digər orta əsr hamamlarından fərqləndirən cəhət divarlarının, tavanının dağ daşı ilə inşa olunmasıdır. Kəndimizdəki su dəyirmanının da yaşı çoxdur. Bu dəyirman bir vaxtlar bərəkət ocağımız, ruzi mənbəyimiz idi. Ərsəyə gətirdiyimiz taxılı orada üyüdər, qonşu kəndlərin sakinləri də dəyirmandan bəhrələnərdi. Bu gün bu dəyirmanın bərpası məni lap sevindirdi. Kəndimizdə qədim ziyarətgah yerlərindən biri də bax, o dağın başındakı “Yalqız” adlanan ağacdır. Bu ağac müqəddəs sayılır, yarpağını qoparmaq, budaqlarını kəsmək, sındırmaq olmaz. Digər bölgələrimizdən də adamlar bu ağacı ziyarətə gəlir, onun altında dilək tutur və dualarının qəbul olunacağına inanırlar. Nüsnüsdə qədim adət-ənənələr bu gün də yaşadılır. Qızım, bizim kəndimiz hər yerdə tanınır. Bu kəndə dünyanın müxtəlif yerlərindən – İran, Türkiyə, İraq, İordaniya, Rusiya, İngiltərə, Hindistan, Fransa, Amerikadan xarici qonaqlar gəliblər. Milli yeməklərimiz, şirin meyvələrimiz, tarixi abidələrimiz, təbiətin gözəlliyi onları heyran edib.

Əlvida Əhmədovun kənd haqqında bildikləri bitib-tükənməzdir, onunla sağollaşıb məktəbin yolunu tuturuq.

Məktəb



Dünən



Bu gün

Bu yeni, üçmərtəbəli gözəl məktəb binası ali təhsil müəssisələrinin binaları ilə müqayisə edilə bilər. Məktəbə daxil olub burada yaradılmış şəraitin sevincini müəllimlərin, şagirdlərin üzlərində gördüm. Məktəbin müəllimi Yunis Hüseynovla həmsöhbət oldum. Müsahibim qəzetimizi hər gün alıb oxuduğunu, əli çatmayanda isə qəzetin internet saytından istifadə etdiyini, rəsmi tədbirlər haqqında məlumatlarla, jurnalistlərimizin məqalələri ilə buradan tanış olduğunu dilə gətirdi. Bu məni çox sevindirdi. Kənd adamlarının “Şərq qapısı” qəzetinə müraciət etməsi, onu hər gün oxuması, qəzet əməkdaşlarını qələmindən tanıması qəzetimizin nüfuzunun əyani göstəricisidir.





Öyrənirik ki, Yunis müəllim 35 ildir, bu məktəbdə çalışır. Onun dediklərindən:

– Məktəb elm, təhsil ocağı kimi gələcəyin müəllimini, həkimini, hüquqşünasını, polisini, iqtisadçısını, mühəndisini, yazıçısını yetişdirir. Bilik vermək, elm öyrətmək kimi mühüm vəzifənin öhdəsindən müəllimlərimiz layiqincə gəlirlər. Bu mənada, mən deyərdim ki, müəllim peşəsi dünyada ən müqəddəs, ən məsuliyyətli peşədir. İndi müasir məktəbimiz müəllimlərimizi daha səylə çalışmağa, şagirdlərimizi isə daha yaxşı oxumağa həvəsləndirir. Mən köhnə məktəbin şagirdi olmuşam. Aydındır ki, o zaman daş kömür, odun peçindən istifadə edirdik. Dünənki məktəblə bu gün istifadəyə verilən məktəb arasında fərqlər müqayisə edilməyəcək qədər çoxdur. Bugünkü şəraitə baxanda deyirəm ki, Nüsnüs kənd tam orta məktəbi Ali Məclis Sədrinin də dediyi kimi, təkcə Naxçıvanın deyil, ölkəmizin ən nümunəvi məktəblərindəndir. Mən ali məktəbdə oxuyanda da belə şərait görməmişəm. Bu gün muxtar respublikada aparıcı sahələrdə çalışan insanların çoxu bu məktəbin məzunlarıdır. Onların vaxtilə oxuduqları sinif bu gün olub ziyalı otağı, işıq otağı, müəllimlər otağı. Mən bundan böyük sevinc bilmirəm. Muxtar respublikamızın rəhbəri məktəbin açılışı zamanı onu da qeyd etdi ki, 2020-2021-ci tədris ilində məktəbin birinci sinfinə 21 şagird qəbul olunub. Mən bu sözdən böyük sevinc və qürur duydum. Fikirləşdim ki, bu söz elə-belə deyilməyib. 90-cı illərin blokadasının gətirdiyi çətinliklər vaxtilə ən çox kəndlərdə hiss olunurdu. Kənd adamları yoxsulluqdan başqa şəhərlərə iş dalınca gedirdilər. Ancaq bu gün yaradılan müasir şərait hesabına onlar öz yurdlarına qayıdıblar, övladlarını bu məktəbdə oxudurlar. Bir vaxt yeni məktəbin şagirdləri minnətdarlıq edəcəklər ki, Qurucu Rəhbər, görkəmli şəxsiyyət, nəinki şəhərdə, ən ucqar dağ kəndlərində belə, gözəl məktəb binaları tikdirib, müasir yol saldırıb, insanların rahatlığı üçün gözəl imkanlar yaradıb. Bu gün də biz minnətdarlıq edirik ki, muxtar respublika rəhbərinin sayəsində belə müasir sinif otaqları, gözəl laboratoriyalar, fənn kabinələri, idman zalı və qurğuları, yeni STEAM kabinəsi yaradılıb. Bu kabinədə indi bizim uşaqlar külək, Günəş panellərinin maketlərini, müasir robotları hazırlaya bilir, gələcəyin mütəxəssisi kimi yetişirlər. Məktəbimizdə yaradılan müasir şərait üçün dövlətimizə minnətdarıq.

Məktəbdə STEAM təlim metodunu öyrədən Elnurə Qənbərova ilə həmsöhbət oluram. Kimya fənnini tədris edən müəllimə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkil etdiyi 1 aylıq STEAM təlimində iştirak edib, STEAM haqqında ilkin biliklər əldə edib. O bildirdi ki, Ordubad rayonunda ilk dəfə olaraq Nüsnüs kənd tam orta məktəbində müasir tələblərə cavab verən STEAM kabinəsi qurulub və lazımi avadanlıqlarla təchiz edilib. STEAM təlim metodu ilə VI və VII siniflərdə təhsil alan şagirdlərimizə elm, texnologiya, mühəndislik, incəsənət və riyaziyyat bacarıqlarını mənimsədirik. Bu metod maraqlı olduğu qədər də məsuliyyətlidir. Onun üstünlüyü şagirdlərə fikir azadlığı verməsi, onlarda dərsə qarşı maraq və həvəs yaratmasıdır. Çünki şagird dərsin nəticəsində öz ideya və düşüncəsinin məhsulunu ortaya çıxarır.

Cari ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən “Əməkdar müəllim” fəxri adı ilə təltif edilənlər içərisində Nüsnüs kənd tam orta məktəbinin də müəllimi vardır. 32 ildən çoxdur ki, məktəbdə ibtidai sinif müəllimi kimi çalışan Səbahət Əliyeva ilə həmsöhbət oluruq. Onun dedikləri: – Necə ki bir bina qurularkən onun özülü olmasa yıxıla bilər, ibtidai sinifdə tədris də belədir. Şagirdlər ibtidai sinifdə yaxşı öyrədilməlidir ki, yuxarı siniflərdə də nailiyyət əldə edə bilsinlər. Biz müəllimlər də çalışırıq ki, gələcəyin fəal, vətənpərvər, dünyagörüşlü uşaqlarını yetişdirə bilək. Dərs dediyim şagirdlər bacarıqlı, qabiliyyətli, məktəbdə keçirilən tədbirlərdə fəal iştirak edən uşaqlardır. Səbahət xanım muxtar respublikamızda elmə, təhsilə, müəllim əməyinə göstərilən diqqət və qayğıya görə minnətdarlıq etdi.

Çox gözəl təəssüratlarla məktəbdən ayrılırıq. Öyrənirəm ki, bu kəndin sakinləri əkinçilik, bağçılıq, meyvəçilik, heyvandarlıq, arıçılıqla məşğuldur. Kənddə qadın arıçılar da az deyil. Onlardan biri Arzu Salehovadır. 30 ildən çoxdur, arıçılıqla məşğul olan müsahibim arıçılığın sirlərini atasından öyrənib. O deyir ki, atamın 100 arı ailəsi var idi, həmişə onun yanında dayanıb arılara necə qulluq etdiyinə maraqla baxırdım. Əvvəllər arı şanını əlimə götürəndə qorxurdum, yavaş-yavaş öyrəşdim. İndi əllərim arı ilə dolu olur, xüsusi geyim olmadan da onlara baxa bilirəm. Arının sancmağı belə, mənim üçün gözəldir, çünki o qədər zəhmətkeşdir. Həyətimizdən arı səsi gəlməsə, ürəyim rahat olmaz. Arıçılığın o qədər gözəl sirləri var ki, onları öyrəndikcə elə bir insan yenidən həyata gəlir, gəncləşir. Bu sənət insanlara zəhməti, təbiəti sevməyi, onu qorumağı öyrədir. Bu gün 20 arı ailəsinə qulluq edirəm. Muxtar respublikamızda digər sahələrə, o cümlədən arıçılığın inkişafına da dövlət qayğısı göstərilir, hər arı ailəsinə görə mənə subsidiya verilir. Arzu xanım həm də 34 ildir ki, Nüsnüs kənd tam orta məktəbində şagirdlərə dilimizin və ədəbiyyatımızın incəliklərini öyrədir.

Burada olarkən kənd və xidmət mərkəzlərinə, həkim ambulatoriyasına da baş çəkdik. Nüsnüslülər vaxt itkisinin qarşısını almaq baxımından yeni kənd mərkəzindən ağızdolusu razılıq etdilər, dövlət qurumlarının burada eyni binada fəaliyyət göstərməsini insan amilinə verilən dəyər kimi qiymətləndirdilər. Yeni istifadəyə verilən xidmət mərkəzində isə sakinlərə digər bölgələrə üz tutub vaxt itkisinə yol vermədən yüksək səviyyədə məişət xidməti göstərilir, eyni zamanda 6 sakin işlə təmin olunub ki, onlar da minnətdarlıq hisslərini ifadə etdilər. Xidmət mərkəzindəki mağazada satışa qoyulmuş yerli məhsullar, xüsusilə ailə təsərrüfatlarında istehsal olunanlar çeşidliliyi və keyfiyyətliliyi ilə diqqətimizi çəkdi. Nüsnüsdəki yeni həkim ambulatoriyası isə əhalinin sağlamlığının keşiyində dayanan müasir səhiyyə ocaqlarından biridir. Sakinlərə vaxtında və hərtərəfli səhiyyə xidməti göstərən müxtəlif ixtisaslı həkimlərin çalışdığı yeni həkim ambulatoriyası müasir tibbi avadanlıqlarla təchiz olunub.



*Nüsnüsdən çox yüksək təəssüratlarla ayrılırıq. Bu gün Nüsnüs, eləcə də doğma diyarımızın bütün müasirləşən, inkişaf edən şəhərləri, kəndləri mənalı ömrünü muxtar respublikamızın möhkəmlənməsinə və yüksəlişinə həsr edən, ümummilli liderimiz Heydər Əliyevin irsinə daim sədaqət, məhəbbət bəsləyən vətənpərvər şəxsiyyətin, Qurucu Rəhbərimiz Ali Məclis Sədrinin yorulmaz əməyinin, fəaliyyətinin bəhrəsi, sonsuz Vətən, xalq sevgisinin parlaq ifadəsidir. İnsanların rahat yaşayışına hesablanan bu tədbirlərin qarşılığında bu gözəl diyarın sakinlərinə isə qurulanları, yaradılanları qorumaq, onlardan səmərəli istifadə etmək, ölkəmizin inkişafına töhfə vermək qalır.*

**Güntac ŞAHMƏMMƏDLİ**

***Dünya mədəniyyəti xəzinəsinə incilər bəxş etmiş xalqımızın mənəvi dəyərlərinin formalaşmasında və inkişafında qadınlarımızın böyük rolu olub. Azərbaycan qadınının tarixin salnaməsində özünəməxsus dəstxəti olmuş, qadın dövlət başçısı, sərkərdə, diplomat, bacarıqlı siyasətçi kimi öz sözünü demişdir.***



# Kəngərli nəslinin qadın nümayəndələri Xan Sarayının ekspozisiyasında

Qədim qəhrəmanlıq dastanlarında və əfsanələrindəki Burla xatın, adı Azərbaycanın dövlətçilik tarixində ilk qadın diplomat kimi daxil olan Sara xatın, Azərbaycan Atabəylər dövlətinin başçısı Şəmsəddin Eldənizin həyat yoldaşı Möminə xatın, Səfəvilər dövlətinin qurucusu Şah İsmayıl Xətainin həyat yoldaşı Taclı bəyim, Quba xanı Fətəli xanın həyat yoldaşı Tuti Bikə, Bərdə hökmdarı Nüşabə, Koroğlunun Nigarı və başqalarının göstərdikləri şücaət, ağıllı, müdrik, uzaqgörən qadın və dövlət xadimi obrazları insanda heyranlıq doğurmaya bilmir. Adı hər zaman şərəf və iftixarla çəkilən qadınlarımız haqqında saysız-hesabsız əsərlər yazılmış, onların şəninə nəğmələr qoşulmuşdur. Qadınlarımız təkcə ictimai-siyasi, mədəni-kütləvi işlərlə məşğul olmamış, bədii yaradıcılıqda da fərqlənmişlər. Müxtəlif dövrlərdə qadın azadlığı, söz azadlığı uğrunda mübarizə aparan açıqfikirli, azad düşüncəli, maarifpərvər qadınlarımız da çox olmuşdur. Onlardan bir çoxunun adları çoxəsrlik tariximizin səhifələrinə qızıl hərflərlə yazılmışdır. Bu mənada, XVIII-XIX əsrlər Azərbaycanın həyatında qadınlar fəallığı və böyük yaradıcılıq uğurları ilə səciyyələnmiş və onların fəaliyyətləri diqqəti cəlb etmişdir.

Azərbaycanın ayrılmaz tərkib hissəsi Naxçıvan torpağının yetirməsi olan qadınlarımızın ictimai və mədəni həyatımızın müxtəlif sahələrindəki fəaliyyətləri, milli-mənəvi dəyərlərimizin formalaşmasında əhəmiyyətli rolu əsrlərboyu diqqət çəkmişdir. Azərbaycan ədəbiyyatının zənginləşməsində və yaşadılmasında əvəzsiz xidmətlər göstərmiş şairə qadınlarımızın bir çoxu heç təsadüfi deyil ki, məşhur nəsillərin davamçıları, eyni zamanda Azərbaycanın milli dövlətçilik tarixində müstəsna rol oynayan xanlıqlar dövrünün nümayəndələri olmuşlar. Yaşadıqları çətin dövrə və keşməkeşli həyat yoluna baxmayaraq, ruhdan düşmədən böyük şövqlə yazıb-yaradan şairə qadınlarımızın qələmə aldıqları şeirlər bu gün də sevə-sevə oxucuların ürəyinə yol tapır.

XVIII-XIX əsrlərdə yaşayıb-yaradan qadın şairələr içərisində Azərbaycanın ayrılmaz tərkib hissəsi Naxçıvan torpağının yetirməsi ***Heyran xanım Dümbili***nin özünəməxsus dəstxəti var.



Heyran xanım Füzuli ədəbi məktəbinin davamçılarından, klassik Azərbaycan poeziyasının tanınmış nümayəndələrindəndir. Klassik şeirimizin bu incə ruhu xanımının XVIII əsrin sonlarında Naxçıvanda Kəngərlilər ailəsində dünyaya gəldiyi bildirilir. Heyran xanım Naxçıvanda təhsil almış, ərəb və fars dillərini, Azərbaycan və fars ədəbiyyatını öyrənmişdir. XIX əsrin əvvəllərində Rusiya-İran toqquşmaları dövründə xoylu naxçıvanlılar ilə birlikdə onun da ailəsi Naxçıvandan İrana köçürülmüş, gənc yaşlarında doğma yurdundan ayrılmış gözəl şairəmiz ömrünün sonunadək Təbrizdə yaşamışdır. Doğma yurdundan ayrı düşən Heyran xanımın həyatı kədərli keçmiş, o, həmişə zəmanədən, insanların vəfasızlığından, özünün qürbətdə tək-tənha qalmasından gileylənmiş, yaşadığı Təbriz şəhərini "guşeyi-zindan" adlandırmışdır.

Heyran xanım Azərbaycan ədəbiyyatı tarixində əsərləri bizə ən çox yadigar qalan şairələrdən biridir. Onun Azərbaycan və fars dillərində böyük bir divanı günümüzədək gəlib çatmışdır. Təmiz, saf məhəbbətin tərənnümü, ayrılıq dərdi, hicran aləmi, vüsal arzusu onun şeirlərinin əsas mövzusu olmuşdur. Şairənin divanının əlyazmaları bir çox Şərq və Avropa dövlətlərinin kitabxanalarını bəzəyir və dəfələrlə müxtəlif ölkələrdə, o cümlədən İranda çap olunmuşdur. Onun türkcə və farsca divanından gözəl və orijinal bir nüsxə M.Naxçıvani adına Təbriz Milli Kitabxanasında qorunub saxlanılır. Bu divan bir neçə dəfə Təbrizdə çap olunmuş və onu sevənlər üçün hədiyyə edilmişdir. Heyran xanım həm də bir musiqiçi olmuş və bir çox musiqi alətlərində ifa etməyi bacarmışdır.

Azərbaycanın həm siyasi, həm də mədəni həyatına görkəmli şəxsiyyətlər bəxş edən Kəngərli nəsli Heyran xanım kimi bir sənətkarı da Azərbaycan ədəbiyyatına nəsib edib.

XIX əsrdə Naxçıvan torpağında yaşayıb-yaradan qadın yazarlarımızdan biri də ***Qönçəbəyim***dir. Qönçəbəyim xanım Naxçıvan şəhərində anadan olmuş və burada açılan qəza məktəbində oxumuş, rus və fars dillərini öyrənmiş, Şərq ədəbiyyatına maraq göstərmişdir. "Qönçeyi-ülfət" ədəbi məclisinin iştirakçılarından olmuş, "Bəyim" təxəllüsü ilə lirik şeirlər yazmışdır.



Naxçıvanda mahal rəisinin müavini işləyən gürcü şairi Nikolaz Baratəşvili onunla görüşmüş, yaradıcılığı ilə maraqlanmış, ona şeirlər həsr etmişdir. Qönçəbəyimin gözəlliyinə və kamalına valeh olan Baratəşvili onun şairlik istedadı olduğunu duymuş, şeirlərini gürcü əlifbasına köçürərək, gürcü dilinə tərcümə edilməsi üçün Tiflisə göndərmiş və həmin şeirlərin xanəndələr tərəfindən musiqi məclislərində oxunmasını məsləhət görmüşdür. Çox keçmədən həmin şeirlər musiqi məclislərinin bəzəyi olmuş, dildən-dilə gəzmişdir. Şairənin yaradıcılığının əsas mövzusunu saf və nakam məhəbbət, taleyindən narazılıq, qadın hüquqsuzluğu motivləri təşkil etmişdir. Fransız yazıçısı və tədqiqçisi Sent Böv Qönçəbəyim haqqında yazmışdır: "Bu qadın yalnız şairə deyildir, onun bütün varlığı poeziyadır".

Azərbaycanın yazıçı və şairləri də Qönçəbəyimin həyat və yaradıcılığına müraciət etmiş, şairə haqqında bir sıra məqalələr və əsərlər yazılmışdır.

XX əsrin qələm sahiblərindən biri, Naxçıvan torpağının yetirməsi olan Müzəffər Nəsirli də Qönçəbəyimin nakam məhəbbətindən və sevgi dolu yaradıcılığından ruhlanaraq "Qönçəbəyim nəğməsi" adlı mənzum dramını yazmış və pyes 2010-cu ildə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında uğurla tamaşaya qoyulmuşdur.

Azərbaycanlı şairə Xurşidbanu Natəvanın qızı ***Xanbikə xanım*** da Kəngərli nəslinin məşhur şairə qadınlarından biri olmuşdur. Xanbikə xanım Şuşada doğulmuş, anası Xurşidbanu Natəvanın yolunu davam etdirərək qəzəllər, rübailər qələmə almışdır. Xanbikə xanım general-mayor İsmayıl xan Naxçıvanskinin oğlu polkovnik Əmənulla xanla ailə həyatı quraraq Kəngərli nəslinə gəlin gəlmişdir. Tədqiqatçılara görə, Xanbikə xanımın nəfis əl işləri, müxtəlif janrlarda tikmələr hazırlamaq bacarığı olmuşdur. Onun bir neçə qəzəli publisist-yazıçı Vasif Quliyevin "Dünənə uzanan cığır" kitabında özünə yer alıb. Bu kitabda göstərilir ki, Xanbikə xanım anası Xurşidbanu Natəvanın Şuşada təşkil etdiyi "Məclisi-üns" ədəbi məclisinin üzvlərindən olmuşdur.



Kəngərli nəslinin qadın nümayəndələrindən olan ***Zərrintac xanım Kəngərli*** də dövrünün azad düşüncəli ziyalısı kimi tanınmışdır. O, Kəngərli nəslinin adlı-sanlı hərbçilərindən olan Hüseyn xanın, Cəfərqulu xanın, Rəhim xanın bacısı, 1907-ci ildə erməni daşnakları tərəfindən vəhşicəsinə qətlə yetirilən general Maqsud Əlixanovun həyat yoldaşı olmuşdur. Zərrintac xanımın əsl Kəngərli əzmi, iradəsi və inadkarlığı sayəsində general Maqsud Əlixanovun nəşi Qafqaz canişinliyi Aleksandropol şəhərindəki erməni qəbiristanlığından Avarıstana yola salınır və general Xunzaxda torpağa tapşırılır. "Şərq qapısı" qəzetinin 3 noyabr 2010-cu il tarixli 206-cı sayında AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Musa Quliyev Zərrintac xanım ilə bağlı araşdırmalarında yazmışdır: "Avropanın bir çox muzeylərində bir gözəl xanımın fotoşəkli adsız olaraq nümayiş etdirilir: "Tatarskaya xanşa. Qorod Tiflis". Bu bizim naxçıvanlı Zərrintac bəyimdir".



XIX-XX əsrlərdə yaşamış, Azərbaycan musiqi mədəniyyətinin inkişafında fəal iştirak etmiş, Kəngərli nəslinin daha bir qadın nümayəndəsi isə ***Xurşid Qacar*** olmuşdur.



Öz istedadı, bacarığı ilə diqqəti çəkən Azərbaycanın Əməkdar incəsənət xadimi, opera müğənnisi ölkədən kənarda, Moskvada vokal təhsili almış ilk azərbaycanlı qadınlardan Xurşid Qacar Moskva estrada ansamblının solisti olmuşdur. O, 10 il Azərbaycan Opera və Balet Teatrında fəaliyyət göstərmiş, Xurşidbanu, Gülçöhrə və Asya, Gülzar, Mikaella və digər rollarda çıxış etmişdir. Eyni zamanda həmin teatrın nəzdində studiya yaratmış, tələbələrin ifasında "Demon", "Çar gəlini" operalarını tamaşaya hazırlamışdır. "Dügah", "Rast", "Segah-Zabul" muğamlarının nota alınmasında xidmətləri olmuşdur.

Sovet hakimiyyəti illərində, xanlıq dövründə öz fikirlərini qorxmadan, çəkinmədən, açıq-aydın qələmə alan qadın yazarları şairə Nigar Rəfibəyli belə qiymətləndirmişdir: "XVIII-XIX əsrlərdə İslam Şərqində yaşayan qadınların şairlik etməsi, sevgisini, nifrətini, arzu və istəyini, bir sözlə, ürəyindən keçənləri vərəqə köçürməsi böyük hünər və cəsarət idi".

Müasir dövrdə xalqımızın tarixi, elmi və mədəni abidələrinin saxlanılması, təbliğ edilməsi və gələcək nəsillərə ötürülməsində muzeylər müstəsna rol oynayaraq tədqiqat və tədris-tərbiyə funksiyalarının vəhdətini yaradırlar. Milli-mənəvi, maddi sərvətlərimizin nadir nümunələri məhz muzeylərimizdə özünə yer tapır. Belə muzeylərdən biri də Naxçıvan xanlarının iqamətgahı olan, onların xatirəsini, izini özündə yaşadan "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2010-cu il 23 oktyabr tarixli Sərəncamına əsasən yaradılan muzeydə Kəngərli nəslinin adlı-sanlı hərbçiləri, elm və mədəniyyət xadimləri ilə yanaşı, şairələrə də xüsusi yer verilmiş, onlara aid daimi guşələr yaradılmışdır. Guşələrdə onların həyat və yaradıcılıqları ilə bağlı materiallar nümayiş və təbliğ olunur. Ekspozisiya zallarında həmin materiallardan Heyran xanımın, Qönçəbəyim xanımın, Zərrintac xanımın, Xanbikə xanımın, Xurşid Qacarın fotoları, onlar haqqında yazılı məlumatlar sərgilənir. Həmçinin rəssam Rəfael Qədimov tərəfindən şairə Qönçəbəyim xanımın orijinal fotosu əsasında çəkilmiş portreti, eyni zamanda ailə üzvlərindən Zərrintac xanımın atası, general-mayor II Kalbalı xan Naxçıvanskinin portreti, qardaşları, tam süvari alayı generalı Hüseyn xan Naxçıvanskinin portreti, Cəfərqulu xanın 1907-ci ilə aid ailə fotosu, həyat yoldaşı Maqsud Əlixanovun fotosu və başqaları maraqlı eksponatlar sırasındadır. Xanbikə xanımın uşaqları Bəhram xan, Kamran xan, Xaqan xanın fotoları, Əkbər xanın hazırda Rusiyada yaşayan qohumları tərəfindən muzeyə hədiyyə edilən xatirə əşyaları və onlar haqqında yazılmış tədqiqat əsərləri, digər qiymətli eksponatlar ekspozisiyada öz əksini tapmışdır.

***Öz yaradıcılıqları ilə ədəbiyyat və mədəniyyətimizin formalaşmasında, çiçəklənməsində əhəmiyyətli rol oynayan, xalqımızın zəngin tarixinə daha da rəng qatmış Kəngərli nəslinin qadın nümayəndələrinin verdiyi töhfələr bu gün də qiymətli incilər sırasındadır.***

**Zülfiyyə ƏLİYEVA**
*"Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksinin baş fond mühafizi-elmi işçi*

***Muxtar respublikamızda gələcəyimiz olan uşaqların məktəbə hazırlığının yüksək səviyyədə təşkili diqqətdə saxlanılır. Bu tədbirlərin davamı olaraq dünən muxtar respublikada fəaliyyət göstərən uşaq bağçalarına məntiqi-riyazi-həndəsi bacarıqları inkişaf etdirən lövhə və "Azərbaycan əlifbasını öyrənirəm" stolüstü aşırma kartları təqdim edilib.***



## Uşaq bağçalarına yeni tədris vəsaitləri verilib

Tədbirdə Naxçıvan Muxtar Respublikası Təhsil nazirinin müavini Heyran Əhmədova çıxış edərək təhsilə göstərilən dövlət qayğısından danışıb. Bildirib ki, son illər təhsil siyasətində məktəbəhazırlıq prioritet istiqamətlərdən birini təşkil etmiş, ilk dəfə olaraq 2017-2018-ci tədris ilindən etibarən ümumtəhsil müəssisələrində dövlət büdcəsi hesabına məktəbəhazırlıq qrupları təşkil olunmuş, 5 yaşlı uşaqların təhsilə cəlb edilməsi səviyyəsi ildən-ilə artmışdır.

Vurğulanıb ki, ötən tədris ilində məktəbəhazırlıq qruplarında tədrisi yüksək səviyyədə təşkil etmək üçün məktəblər 248 məntiqi-riyazi-həndəsi bacarıqları inkişaf etdirən lövhə, 244 "Azərbaycan əlifbasını öyrənirəm", 4 "Rus əlifbasını öyrənirəm" stolüstü aşırma kartları ilə təmin edilib. Ali Məclis Sədrinin tapşırığı ilə muxtar respublikada fəaliyyət göstərən uşaq bağçalarına 22 ədəd məntiqi-riyazi-həndəsi bacarıqları inkişaf etdirən lövhə və "Azərbaycan əlifbasını öyrənirəm" stolüstü aşırma kartları təqdim olunur ki, bu da uşaq bağçalarında məktəbəhazırlıq qruplarında uşaqların yüksək səviyyəli hazırlığına öz töhfəsini verəcəkdir.

Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının müavini Təhminə Mustafayeva çıxış edərək muxtar respublikada təhsilin bütün pillələrinin, eyni zamanda məktəbəqədər təhsilin hərtərəfli dövlət qayğısı ilə əhatə olunmasından danışıb. Bildirib ki, hazırda Naxçıvan şəhərində fəaliyyət göstərən 11 uşaq bağçasında təşkil edilmiş 114 qrupda 2150-dən artıq uşaq təlim-tərbiyəyə cəlb olunub. Həmin uşaqlardan 640-ı məktəbəhazırlıq qruplarında təhsil alır. Ümumilikdə, muxtar respublikada 22 uşaq bağçası fəaliyyət göstərir ki, bunların da hamısı yeni və müasir binalarda yerləşir. Hazırda 1 uşaq bağçası inşa olunmaqdadır.

Təhminə Mustafayeva məktəbəqədər təhsil müəssisələrində yaradılan şəraitə, göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirərək yeni təqdim olunan təlim vəsaitlərindən səmərəli istifadə ediləcəyini vurğulayıb.

Sonra Naxçıvan şəhər 17 nömrəli tam orta məktəbin məktəbəhazırlıq qrupunun müəllimi İlhamə Quliyeva məntiqi-riyazi-həndəsi bacarıqları inkişaf etdirən lövhədən istifadə ilə bağlı məlumat verib.

Sonda muxtar respublikada fəaliyyət göstərən uşaq bağçalarına yeni tədris vəsaitləri təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Komandir hazırlığı məşğələləri keçirilib

***"Naxçıvan Qarnizonu Qoşunlarının 2021-ci tədris ilinə Uzlaşma Planı"na əsasən tabor, divizion komandirləri və müavinləri ilə komandir hazırlığı məşğələləri keçirilib.***

Məşğələlərdə əsas diqqət zabitlərin sülh və müharibə şəraitində komandir keyfiyyətlərinin əsasını təşkil edən mənəvi-psixoloji dayanıqlığının qorunmasına və bölmələri idarəetmə bacarıqlarının təkmilləşdirilməsinə yönəldilib, 44 günlük Vətən müharibəsində iştirak edən bölmələrin döyüş təcrübəsini özündə əks etdirən praktik fəaliyyətlər imitasiya edilib.



Tabor və divizionlarda taktiki-sıra məşğələlərinin təşkili və hazırlanması metodikası göstərilib, düşmənin kiçikölçülü pilotsuz uçuş aparatlarına və dronlarına qarşı mübarizənin üsul və vasitələri nümayiş etdirilib, praktik fəaliyyətləri icra edən minaatan batareyaları simulyator minaatanlarından atışlar keçiriblər. Müasir tank texnikalarının gecə şəraitində döyüşdə tətbiqi ilə minalı sahələrdən, süni və təbii maneələrdən keçməklə atəş tapşırıqlarını yerinə yetirməsi praktik olaraq göstərilib.

Komandir hazırlığı məşğələlərinə cəlb edilmiş zabitlərdən müxtəlif ixtisas və fənlər üzrə məqbullar qəbul edilib.

**Nəriman NƏCƏFOV**

Turizm

# Ailə turizmi: bu trendi necə formalaşdırmalıyıq?



***Təxminən, 1 il bundan əvvəl turizmlə bağlı yazılarımızın birində belə bir statistikaya müraciət etmişdik: Ümumdünya Turizm Təşkilatı 2017-ci ildə dünya turizm bazarının növbəti təhlilindən sonra belə qənaətə gəlmişdi ki, 2020-ci ildə turizm gəlirləri 2 trilyon dollara çatacaq və bunun 20 faizi kənd turizminin payına düşəcək. Lakin dünyanı bürümüş məlum pandemiya dalğası bütün proqnozları alt-üst etdi. Bundan ən çox ziyan çəkən sahə isə, təbii ki, turizm oldu. Doğrudur, bu gün hər bir ölkə özlüyündə pandemiya ilə mübarizənin başa çatacağı günü səbirsizliklə gözləsə də, turizmin inkişafı üçün prosesin digər ölkələrdə də başa çatması zəruri şərtlərdən birinə çevrilib. Ancaq maraqlı məqamlardan biri odur ki, indiki dövr ölkələr üçün həm də turizm hazırlığı baxımından diqqət çəkir. Hətta müxtəlif vasitələrlə ölkəsindəki maraqlı təbiət zonalarına turist qəbulu üçün reklam verən turizm operatorları da az deyil.***



Bizim üçün diqqətçəkən amillərdən biri də odur ki, adıçəkilən turizm təşkilatı bu təhlilləri apararkən, həqiqətən, dünyadakı turizm hərəkətliliyində kənd turizminin payının ildən-ilə artdığını vurğulayır. Bu baxımdan hazırda kənd və ya ekoloji turizm sahələrinin inkişaf etdirilməsi üçün yetərli zamanımız var. Məsələyə bir də bu aspektdən baxmaq lazımdır ki, mövcud vəziyyət də daxili turizmin inkişafı üçün yeni imkanları ortaya qoyur. Məsələn, əvvəlki illərlə müqayisədə indi muxtar respublikamızın sakinləri həftə sonları qədim diyarımızın gəzməli-görməli yerlərinə daha çox üz tutur, yerli şəraitdən istifadə imkanlarından yararlanırlar. Hətta qış fəsli olmasına baxmayaraq, təbiət qoynunda istirahət etməyi sevənlər həm muxtar respublikamızın istirahət məkanları ilə tanış olur, həm də olduqları yerlərdən maraqlı fotoşəkillər paylaşmaqla sosial şəbəkələr vasitəsilə bu işə öz töhfələrini verirlər. Muxtar respublika turizmində son dövrlərdə diqqətçəkən məqamlardan



biri də Ağbulaq Xizək Mərkəzinin yaradılmasıdır. Turizmdə mövsümiliyin aradan qaldırılmasında mühüm rol oynayacaq bu mərkəz yaxın gələcəkdə muxtar respublikaya turist axınının sürətləndirilməsinə öz töhfəsini verəcək. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Ağbulaq Xizək Mərkəzinin açılışında bir neçə maraqlı məqama da toxundu. Bildirdi ki, ***"...kənddə ailə təsərrüfatları inkişaf etdirilməli, bu sahədə bacarığı olanlara dəstək göstərilməlidir. Onların istehsal etdikləri məhsullar yüksək səviyyədə qablaşdırılaraq turistlərə təqdim olunmalıdır. Turistik bölgənin əhalisinin gəlirləri, əsasən, turistlərə məhsullarını satmaqla, xidmət göstərməklə əldə olunur. Mərkəzdə böyük yeməkxana fəaliyyət göstərir. Bura üçün də məhsullar kənd əhalisindən alınmalıdır. Ərazidə müvafiq istehsal sexlərinin yaradılması imkanı da araşdırılmalıdır".***

Muxtar respublika rəhbərinin turizm mərkəzində söylədiyi bu fikirlər, ümumilikdə, Naxçıvanda turizmin gələcəyi üçün aydın istiqamətlər ortaya qoyur. Xatırladaq ki, bu yaşayış məntəqəsi muxtar respublikada kompleks turizm infrastrukturunun qurulduğu ilk kənddir. Kənddə ailə təsərrüfatlarının inkişaf etdirilməsi belə təsərrüfat sahiblərinə öz məhsullarını birbaşa turistlərə satmaq üçün yeni imkanlar açır. Bu, inkişaf etmiş turizm ölkələrində geniş tətbiq olunur. Digər tərəfdən mövcud şərait ailə turizminin inkişaf etdirilməsinə zərurət yaradır. Hansı ki bu gün aktual məsələlərdən biri də bir naxçıvanlı ailənin turizm sektorunda biznes qurmasıdır. Bəs ailə turizmi nədir və bunu necə formalaşdıra bilərik?



Məlum məsələdir ki, ailə təsərrüfatı ailə üzvlərinin iştirakı ilə ərsəyə gətirilən ərzaq və ya qeyri-ərzaq məhsullarının istehsal olunaraq satışa çıxarılmasını nəzərdə tutur. Konkret olaraq, Ağbulaq kəndinin nümunəsində Ali Məclis Sədrinin də dediyi kimi burada fəaliyyət göstərən ailə təsərrüfatları istehsal etdikləri məhsulların növ və çeşidlərini artırmaqla o məhsulları ərazidəki yeməkxanaya verməklə və ya birbaşa turistlərin özünə satmaqla vəsait əldə edə bilərlər. "Ailə turizmi" anlayışında isə turistlərə yalnız satış deyil, həm də xidmətlər nəzərdə tutulur. Yəqin ki, bir çoxumuza məlumdur ki, neçə illər bundan əvvəl muxtar respublikamızda turizmi inkişaf etdirmək məqsədilə bir çox kənd yaşayış məntəqələrində fərdi evlərin turistlərə kirayəyə verilməsi məsələsi gündəmə gəlmişdi. Hətta muxtar respublikanın turizmlə bağlı sosial şəbəkə hesablarında belə, evlərlə bağlı elanlar da yerləşdirilmişdi. Məhz ailə turizmi də bölgəyə üz tutan turistlərə bu cür evlərin kirayə verilməsindən tutmuş onlara müxtəlif xidmətlərin təklif olunmasını əhatə edir. Yəni söhbət kənddə yaşayan ailələrin turizm xidmətlərinə cəlb olunmasından gedir. Ali Məclisin Sədri də Ağbulaqdakı çıxışında bu amilə diqqət çəkmişdi.

Ailə turizminin inkişafı üçün ilk olaraq turizm bölgələrində yaşayan ailələrin potensialının hansı səviyyədə olması şərtdir. Buraya, əsasən, kirayə verilən evlərin təhlükəsizlik və infrastruktur təminatı (klassik və ya modern olmasından asılı olmayaraq), ailə üzvlərinin turistlərlə ünsiyyət bacarığı, dil bilgiləri, gülərüzlülük, onlar üçün gəzintilərin təşkili, fərqli növ və çeşidlərdə yeməklərin hazırlanaraq təqdim olunması və digərləri aiddir. Və yaxud da beynəlxalq turizmdə daha çox rast gələnən turistlərin təsərrüfat işlərinə cəlb olunması ("özün topla, özün bişir, özün ye" konsepsiyası), ənənəvi məişət məşğuliyyətləri ilə yerli yaşam tərzinin içinə daxil olmaq və sair.

Bir faktı vurğulamaq lazımdır ki, ailə turizminin geniş şəkildə təşkil olunduğu kənd turizminin inkişafında ənənəvilik mühüm amillərdən sayılır. Belə ki, bu turizm növünü seçən turistlərin əksəriyyətini daha çox ənənəvi mədəniyyət maraqlandırır. Çünki burada əsas motivasiya kənd həyatına, burada yüzillərboyu yaşadılan dəyərlərə, adət-ənənələrə yaxın olmağa hesablanır. Heç bir halda müasir dəbi sevməyən kənd turizmi milliliyin təbliği baxımından unikal imkanlar yaradır. Turistləri isə bu dəyərləri öyrənmək, onlardan istifadə etmək üçün turizm şirkətlərinin təşkil etdiyi 2-3 saatlıq gəzintilər qane etmir. Onlar üçün fərdi evlərdə qalmaq, ailə üzvləri ilə təmasda olmaq daha maraqlıdır, nəinki rəsmi proqram çərçivəsində hərəkət etmək. Elə buna görə də bütün dünyada kənd turizminin payı sürətlə artmaqdadır.

Nəzərə alaq ki, yaxın gələcəkdə Naxçıvanla Azərbaycanın digər bölgələri arasında nəqliyyat kommunikasiyalarının açılması həm ölkə daxilindən, həm də xaricdən turist axınını sürətləndirəcək, – bu baxımdan ailə turizminin də tələbata uyğun olaraq inkişaf etdiyi şəksizdir. Unutmayaq ki, ailə turizmində iş təkcə turistlərə ev kirayə verməklə bitmir, bunun iqtisadi effektliyi o qədər yüksək olmaz. Əgər turistlərə digər xidmətlər təklif olunmursa, onlar bu pulu başqa ünvanlarda xərcləyəcək. Nəticədə, kirayə pulundan dəfələrlə artıq qazanıla biləcək vəsait (yemək, çay, səyahət, tərcüməçilik xidmətləri və sair) əldən çıxacaq. Bu işdə yalnız o ailələr qazanclı çıxa bilərlər ki, sadaladığımız tərəfləri özlərində birləşdirə bilsinlər. Bir sözlə, Naxçıvanın maraqlı təbiətə və coğrafi əraziyə malik olması yaxın gələcəkdə ailə turizminin muxtar respublikada mühüm məşğuliyyət sahələrindən birinə çevrilməsinə imkan verəcək. Buna isə indidən hazırlaşmalıyıq, həm də ailəlikcə!

Səbuhi HƏSƏNOV

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan Müəllimlər İnstitutunun tələbələrinə "Nizami" filminin nümayişi təşkil olunmuşdur.***

## "Nizami" filmi nümayiş edilib

Əvvəlcə tələbələrə məlumat verilmişdir ki, 1982-ci ildə rejissor Eldar Quliyev tərəfindən ekranlaşdırılmış film bu il 880 illik yubileyini dövlət səviyyəsində qeyd etdiyimiz dahi Azərbaycan şairi Nizami Gəncəviyə həsr olunmuşdur. Filmdə şairin obrazı, o uzaq illərdə Azərbaycan xalqının siyasi və sosial həyatının ab-havası, insan münasibətlərinin mürəkkəb dünyası öz əksini tapmışdır. Bu maraqlı ekran əsəri insanın tarixdə rolu, onun adamlar qarşısında borcu haqqında düşüncələrlə zəngindir. Nizaminin mənəvi idealı ilə reallıq arasında uyğunsuzluq şairin insana və ədalətə inamını qıra bilməmişdir.



Filmdə əsas rollarda Müslüm Maqomayev, Həmidə Ömərova, Həsənağa Turabov, Ələddin Abbasov, Hacımurad Yegizarov, Şahmar Ələkbərov, Hamlet Xanızadə və başqaları çəkilmişlər.

"Nizami" filminin nümayişi maraqla qarşılanmışdır.

**Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti**

## Üç növ üzrə şəhər birinciliyi keçirilib



Naxçıvan Muxtar Respublika Stadionunda 5 mart – Bədən Tərbiyəsi və İdman Günü münasibətilə Naxçıvan şəhər tam orta məktəblərinin şagirdləri arasında atletikanın yadroitələmə, nizəatma və qaçış növləri üzrə şəhər birincilikləri keçirilib.

Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi, şəhər Təhsil Şöbəsi, Naxçıvan Muxtar Respublikası Atletika Federasiyasının Naxçıvan şəhər bölməsi və şəhər Uşaq-Gənclər İdman Məktəbinin birgə təşkil etdiyi birincilikdə 13 tam orta məktəbdən 182 idmançı (hər komandadan 7 oğlan, 7 qız) iştirak edib.

Yadroitələmə növündə idmançılar yadronu diametri 213,5 sm olan məhdudlanmış çevrə içərisindən meydanın nişanlanmış bölməsinə tullayıblar. Şəxsi xarakter daşıyan birinciliyin yekununa əsasən qızlar arasında Əfsanə Babayeva, oğlanlar arasında Əli Rzayev qalib adını qazanıblar.

Nizəatma növündə isə qızlar arasında Günayə Həsənova, oğlanlar arasında isə İsmayıl Orucov hamıdan güclü olublar.

Qaçış növündə qızlar arasında Aminə Novruzzadə 100, Elmira Əlizadə 200, Zeynəb Müslümova 400, Sevinc Əliyeva 800, Cəmilə Əmirova isə 1500 metr məsafədə finiş xəttinə hamıdan tez çatıblar. Oğlanların mübarizəsində isə Ayxan Heydərov 100, Kənan Yəhyayev 200, Əliabbas Səfərov 400, Mehdi Həsənov 800, Cabbar Əliyev isə 1500 metr məsafədə birinci yerə layiq görülüblər.

Komanda hesabında isə 15 nömrəli tam orta məktəbin komandası fəxri kürsünün ən yüksək zirvəsinə qalxıb. Digər iki pillədə isə 9 və 14 nömrəli tam orta məktəblərin komandaları qərarlaşıblar.

Sonda yer tutan komanda və idmançılara təşkilatçıların diplomları təqdim olunub.

## Məktəblilər arasında yoldaşlıq görüşü

Naxçıvan şəhər 3 nömrəli tam orta məktəbin idman zalında 5 mart – Bədən Tərbiyəsi və İdman Günü münasibətilə Naxçıvan şəhər tam orta məktəblərində yaradılan idman klublarının qız komandaları arasında voleybol üzrə yoldaşlıq görüşü keçirilib.



Tədbirdən öncə çıxış edənlər Bədən Tərbiyəsi və İdman Günü münasibətilə komandaları təbrik edib, onlara dərslərində və idman həyatlarında uğurlar arzulayıblar.

Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi, şəhər Təhsil Şöbəsi və Uşaq-Gənclər İdman Məktəbinin birgə təşkil etdiyi görüşdə 5 və 15 nömrəli tam orta məktəblərin komandaları üz-üzə gəlib. Yekunda 15 nömrəli tam orta məktəbin komandası 3:1 hesabı ilə qalib gəlib.

Sonda hər iki komandaya təşkilatçıların diplom və Fəxri fərmanları təqdim edilib.

Ceyhun MƏMMƏDOV

### *İtmişdir*

Şərur rayonu, Mahmudkənd sakini Qəribov Afət Rüstəm oğlunun adına olan JN-306A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayonu, Oğlanqala kənd sakini Hüseynov Asif Hüseyn oğlunun adına olan JN-169 inventar nömrəli, 10200048 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayonu, Zeyvə kəndində yaşamış Hüseynov Məmmədsalah Əsəd oğlunun adına olan JN-1330C inventar nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 211